# Balakən: Görülən işlərin əsas hədəfi insanların rifahını yüksəltməkdir

***❒ Maşınımız rayon mərkəzinə çatanda günəş dincəlməyə yer axtaran adam kimi yorğun-yorğun dağların arxasına çəkilirdi. Çox maraqlı təbiət görüntüsü idi. Bu lövhə mənə Balakənə ötən səfərimiz zamanı buradakı Heydər Əliyev parkında şahidi olduğum bir dialoqu xatırlatdı. O zaman dostum Qəhrəman həkimin parkda gəzdirdiyi dörd-beş yaşlı nəvəsi öz kölgəsinin uzandığını görəndə babasından soruşmuş-du:***

– Baba, bayaq belə deyildi, indi mənim kölgəm niyə uzanıb?

– Günəş dağların arxasında yatmağa gedəndə uşaqların kölgəsi uzanır.

– Mən kölgəmin uzanmasını istəmirəm, günəş yatmağa getməsin.

– İnsanlar günəşin işinə qarışa bilmirlər, mənim balam.

– Bəs insanlar nəyi bacarırlar?

– İnsanlar ev tikməyi, yol çəkməyi, körpü salmağı, uşaqlar üçün bağça, məktəb yaratmağı, bir də sənin kimi gül balaları xoşbəxt böyütməyi.

– Mən xoşbəxtəm.

– Nədən bilirsən?

– Atam deyir ki, Balakəndə böyüyənlər xoşbəxt olurlar...

Uşağın özünü xoşbəxt sanması da maraqlı idi, günəşin batmasını istəməməsi də. Amma, günəşi daha çox görmək naminə öz kölgəsinin uzanmasını qurban verməyi daha düşündürücü idi. Bəs Balakəndə böyüdüyü üçün özünü xoşbəxt sanması? Çox sadə məntiqdir : valideynin öz övladına verdiyi tərbiyənin kökündə yurdsevərlik, Vətənə bağlılıq kimi keyfiyyətlər durursa, onda uşaq özünü Balakəndə doğulduğuna görə xoşbəxt hesab edir. Dünyanın işlərindən başı çıxmayan bir cocuğun işıq, aydınlıq üçün nəyisə qurban vermək istəyinin analoqunu Balakəndə hər gün, hər addımda görmək mümkündür. Özü də uşaqların yox, dünyanın bütün işlərindən başı çıxan böyüklərin timsalında.



Yüz dəfə yazmışam, yüz birinci olsun. Balakənin işgüzar, bacarıqlı, səmimi insanları, füsunkar, ilin hər fəslində gəl-gəl deyən təbiəti, sosial-iqtisadi inkişaf naminə bir yumruq kimi birləşməyi bacaran camaatı var. Bu yurdun dünəni də zəngin olub, bu günü də zəngindir, sabahı da belə olacaq. "Balakənin dünəni" demişkən bir faktı da qeyd edim. Hələ neçə illər qabaq öyrənmişdim ki, 1941- 45 -ci illər müharibəsinin ölkə iqtisadiyyatına vurduğu ziyanın daha tez aradan qaldırılması üçün kənd təsərrüfatının çox qazanc gətirən sahələri inkişaf etdirilirdi. Təbii ki, həmin sahələrdən biri də tütünçülükdür. Balakən camaatı bu bitkinin əkilib-becərilməsini, toplanıb təhvil verilməsini daha yaxşı bildiyinə görə digər rayonlara nisbətən daha çox məhsul əldə edirlər. Məhz elə ona görə də 1948-ci ildə 18 nəfər balakənli Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü. Xatırladaq ki, respublikamızın heç bir rayonunda bu qədər əmək qəhrəmanı olmayıb. Çox sonralar, mən bu rayonlar üzrə bölgə müxbiri vəzifəsində çalışmağa başlayanda həmin qəhrəmanlardan biri ilə görüşüb yazı hazırlamaq istəmişdim. Təəssüf ki, onların heç biri həyatda yox idi. Müharibə insanlarda ürək qoymuşdu ki?

Daha bir təəssüf. Balakənin növbəti qeyri-adiliyini qeyd etmək istəyəndə də müharibə andıra qalmış yada düşür. Bədnam qonşularımız Azərbaycanın dilbər guşəsi olan Dağlıq Qarabağı və ətraf rayonları işğal edəndə öz ata-baba yurdundan didərgin düşən soydaşlarımız "Xarı bülbülsüz qaldıq" - deyə göz yaşı tökürdülər. Çünki hamı elə bilirdi ki, bu qeyri-adi gül ancaq Şuşada bitir. Sən demə, Xarı bülbülün başqa bir vətəni də Balakən imiş. Fikrimcə, bunu Balakən təbiətinin Qarabağ həsrətli insanlara təsəllisi kimi də qiymətləndirmək olar.

Balakənli dostum, fotoqraf Ramazan Abalovla bu rayonu az qala qarış-qarış gəzmişik. İnkişaf, tərəqqi adında nə varsa, hamısını mən qələmə almışam, o da fotolentin yaddaşına köçürüb. Elə bu yazıda sizə təqdim edilən foto- şəkillərin müəllifi də Ramazandır. Onun bir neçə cümləsini yada salmaq istəyirəm. Ramazan deyir ki, bizim rayonun qonşu Gürcüstanla həmsərhəd olması üzərimizə böyük vəzifələr, məsuliyyət qoyur. Çünki sərhəddən Azərbaycana keçən istənilən qonağın respublikamız barədə ilk təəssüratı məhz Balakəndə formalaşır. Ona görə də Balakənin ölkənin ən inkişaf etmiş rayonuna çevrilməsi üçün hamı əlindən gələni edir. Əvvəllər də belə idi, indi də belədir. Yəni, camaat həmişə əməksevər və torpağa bağlı olub.

Rayon icra hakimiyyətinin başçısı İslam Rzayevlə söhbətimizdə təkcə sosial-iqtisadi göstəricilər barədə deyil, eləcə də balakənlilərin dövlət siyasətinin yerlərdə həyata keçirilməsi məsələsinə verdiyi töhfələr barədə danışdıq. Amma bu söhbətin ilk mövzusu kənd təsərrüfatı sahəsi üzərində quruldu. Çünki Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkə iqtisadiyyatının daha da qüdrətləndirilməsi və əhalinin sosial-rifah halının daim yaxşılaşdırılması məqsədilə bütün rayonlarda torpaqlardan maksimum şəkildə istifadə olunmasını tələb edir. İslam müəllim danışdı ki, rayonun kənd təsərrüfatının mövcud potensialının üzə çıxarılması, əkin sahələrinin artırılması, əhalinin məşğulluğunun təmin edilməsi, torpaqlardan istifadənin səmərəliliyinin artırılması sahəsində əhəmiyyətli işlər görülür, bu məqsədlə rayonda yaradılan qərargahın müntəzəm olaraq iclasları keçirilir. Rayonun təbii və əmək ehtiyatlarından səmərəli istifadə olunması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması sahəsində ciddi təhlillər aparılıb, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən istifadənin vəziyyəti dərindən öyrənilib, əkin sahələrinin, eləcə də istehsalın artırılması ilə bağlı hədəf göstəriciləri müəyyən edilib. Görülmüş işlərin nəticəsində cari ildə 15 min 586 hektar sahə əkin altında olub.



Əvvəlki ilə nisbətən əkin sahələri 10,5 faiz artırılıb.

Rayon rəhbərinin dediyi fikirlərin xüsusilə qabardılmalı məqamlarından biri də o idi ki, taxılçılıqda məhsuldarlıq göstəricisi 2015-ci ilə nisbətən 5 sentner artaraq 30 sentnerə çatdırılıb. Bu, son illərdə taxılçılıqda ən yüksək məhsuldarlıq göstəricisidir. Qeyd olunmalıdır ki, qarğıdalı əkini və məhsul istehsalı sahəsində Balakən rayonu respublikada birinci yerdə qalmaqdadır. Rayonun qarğıdalıçılıq üzrə ixtisaslaşması, bu sahənin inkişaf etdirilməsinə mövcud təbii iqlim şəraitinin imkan verməsi insanlar tərəfindən dəyərləndirilir. Ona görə də rayon əhalisində bu sahəyə maraq ildən-ilə artmaqdadır. Cari ilin əlverişli keçən iqlim şəraiti bol qarğıdalı istehsal olunacağından xəbər verir və sahələrdən 45 min ton məhsul gözlənilir.

Yadımdadır, Heydər Əliyev idarəçilik təcrübəsinin əsas tərkib hissələrindən biri də rəhbər şəxsin kabinetdə oturmaması idi. Həmin təcrübə Balakəndə öz müsbət nəticələrini verməkdədir. Azərbaycan Prezidentinin aqrar sahənin inkişaf etdirilməsi sahəsində verdiyi tapşırıqların icrasının təşkili məqsədilə kəndlərdə görüşlər keçirilir, tütün bitkisinin becərilməsi sahəsində uzun illər ərzində formalaşmış əmək vərdişlərinin olması nəzərə alınaraq tütünçülüyün inkişaf etdirilməsi sahəsində zəruri işlər görülür. Nəticədə son illərdə ilk dəfə olaraq ümumilikdə 310 istehsalçı ilə müqavilə bağlanılıb, 501 hektar sahədə tütünün "İtiyarpaq" və "Virciniya" növlərinin əkilməsi təmin edilib. Hazırda sahələrdən tütünün toplanması davam edir.

Xatırladaq ki, rayonda baramaçılığın və tütünçülüyün inkişaf etdirilməsi məqsədilə xüsusi tədbirlər planı tərtib olunub. İslam müəllim dedi ki, artıq barama istehsalı sahəsində zəruri işlər görülüb, baramaçılığın yem bazasının möhkəmləndirilməsi üçün 10 min ədəd tut ağacının əkilməsi təmin olunub. Kümçülərin "Şəki İpək" ASC ilə bağladıqları müqaviləyə əsasən, 70 qutu ipəkqurdu bəslənilib və 3,3 ton barama istehsal edilərək müəssisəyə təhvil verilib.

Balakəni yaxşı tanıyanlar bilirlər. Rayonda yay-payız aylarında daha çox əmək sərf edilən sahə meyvəçilik olur. Bu rayonun iqlim şəraitinin meyvəçilik üçün nə qədər əhəmiyyətli olduğunu söyləməyə ehtiyac yoxdur. Ona görə də birbaşa faklardan danışmaq olar. Həmsöhbətim qeyd etdi ki, rayonda meyvəçiliyin, xüsusilə, intensiv bağçılığın inkişafına ciddi fikir verilir. Ən müasir texnologiya tətbiq edilməklə son illərdə salınmış və damlama üsulu ilə suvarılan 187 hektar meyvə bağlarına aqrotexniki xidmət göstərilib və ekoloji təmiz meyvə istehsalına başlanılıb. Bununla yanaşı, qərzəkli meyvələrdən fındıq və qoz bağlarının salınması istiqamətində də ardıcıl işlər aparılır. Katex kəndində xaricdən qoz ağacları gətirilərək sahibkarlar tərəfindən 3,5 hektar sahədə əkilib və damlama üsulu ilə suvarma sistemi qurulub. Eyni zamanda, rayonun kəndlərində 139 hektar sahədə yeni fındıq bağları salınıb ki, bu da fındıq istehsalının artırılmasına imkan yaradacaq. Rayonda bitkiçiliklə yanaşı, heyvandarlıq da inkişaf etdirilir. Bu sahədə görülmüş işlərin nəticəsində iri və xırdabuynuzlu mal-qaranın sayında, həmçinin heyvandarlıq məhsullarının istehsalında artım qeydə alınmaqdadır.

Təbii ki, aqrar sektorun davamlı inkişaf edirilməsi üçün ən əsas şərtlərdən biri də əkin sahələrinin suvarılmasının təşkil edilməsidir. Ona görə də "Balakən QES" suvarma kanalı bərpa edilib və hektarlarla əkin sahələrinin suvarılmasına imkan yaranıb. Katex , Sarıbulaq, Qaysa, Tülü, Talalar və Xalatala kəndlərində mövcud suvarma kanalları təmizlənib, İtitala kəndində 400 metr, Püştətala kəndində 200 metr uzunluğunda yeni kanallar qazılıb, Meşəşambul kəndinə Ulğam çayından əlavə suvarma kanalının çəkilməsi istiqamətində işlər görülüb.

Aqrar sahədə qazanılan uğurlardan danışırqsa, elə buradaca sahibkarlığa göstərilən qayğını xüsusi qeyd etmək lazımdır. Onlardan üçü ilə görüşüb, söhbət etdik. İslam Muradov da, Xanlar Ramazanov da, Nüsrət Əsgərov da ölkə başçısının sahibkarların fəaliyyəti üçün yaşıl işıq yandırdığını xüsusi qeyd etdilər. Üstəlik onu da bildirdilər ki, rayon icra hakimiyyətinin başçısı İslam Rzayev də xüsusi yığıncaq çağırıb, hamıya tapşırıb ki, sahibkarlar üçün heç bir problem yaradılmamalıdır.

Sahibkar İslam Muradovu çoxdan tanıyıram. Bu il yüz hektar sahədə qarğıdalı, 25 hektar sahədə isə buğda əkib. Üstəlik, tütünçülüklə də məşğuldur. Dövlət tərəfindən xeyli dotasiya hesablanıb. Bundan başqa, güzəştli şərtlərlə kredit alıb. Həvəslə danışdı: "Bu gün sahibkarların fəaliyyəti üçün ölkədə hər cür şərait yaradılıb, – dedi, – hara gediriksə, qapılar üzümüzə açıqdır".




Nüsrət Əsgərov da , Xanlar Ramazanov da həm qarğıdalı, həm də tütün əkiblər. Söhbət zamanı ürəklə bildirdilər: " Bu il Balakənin tarixində rekord qarğıdalı olacaq. Hektardan 90–100 sentner". Sevindirici rəqəmdir, məhsulunuz həmişə bol olsun.



Aqrar sektorun inkişafı ilə yanaşı, rayon ərazisində abadlaşdırma, tikinti, təmir və quruculuq işləri də davam etdirilir. Şəhərdə Heydər Əliyev Fondu hesabına tikilən 100 yerlik körpələr evi-uşaq bağçası və rayon polis şöbəsinin inzibati binası artıq istifadəyə verilib. Kənd təsərrüfatı idarəsinin və Mazımçay buraxılış məntəqəsi yaxınlığında gömrük terminalının tikintisi davam etdirilir."Balakən-1" kiçik su elektrik stansiyası istismara hazırdır. Məktəbəqədər təhsil və mədəniyyət obyektlərində əsaslı və cari təmir işlərinin aparılmasına başlanılıb, mədəniyyət mərkəzində təmir işləri əsasən yekunlaşdırılıb. Mərkəzi kitabxanada və Hənifə 1 saylı kənd körpələr evi-uşaq bağçasında təmir işləri davam edir. Səhiyyə obyektlərinin əsaslı təmirinə bu günlərdə başlanacaqdır.

Dövlət siyasətimizin başqa bir sahəsini – əhaliyə göstərilən xidmətləri daim yüksək səviyyədə saxlayan rayonlarımızdan biri də Balakəndir. Bu il də əhalinin qaz, su və istiliklə təchizatının yaxşılaşdırılması sahəsində xətlərdə zəruri təmir işləri aparılıb, yaranmış problemlər qısa müddətdə aradan qaldırılıb. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması məqsədilə 45 ədəd transformator cari, 19 transformator isə əsaslı təmir edilib, 160 kilovat gücündə transformator məntəqəsi quraşdırılıb. Elektrik verilişi xətləri üzrə ümumilikdə 238 dayaq basdırılıb. Əhaliyə pensiya və müavinətlərin vaxtlı-vaxtında ödənilməsi təmin edilir, rabitə, poçt, ticarət, iaşə və nəqliyyat xidmətlərinin göstərilməsi diqqətdə saxlanılır.

Yuxarıda təlim-tərbiyə məsələsinin vacibliyindən söz açmışdıq. İndi Balakəndəki Heydər Əliyev Mərkəzi həmin prosesdə rayon ziyalılarının ən yaxın köməkçisinə çevrilib. Mərkəzin ekspozisiya zalı müasir tələblərə uyğun olaraq yeniləşdirilib. Müasir Azərbaycan tarixinin ümumtəhsil məktəblərində daha səmərəli öyrənilməsi məqsədilə Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş mövzulara uyğun olaraq burada XI sinif şagirdlərinə dərslər təşkil olunur. 28 dəfə keçirilən respublika səviyyəli birincilik, çempionat və turnirdə 232 nəfər balakənli idmançı iştirak edib. Həmin yarışlarda idmançılar 13 dəfə birinci, 10 dəfə ikinci və 11 dəfə üçüncü yeri tutub və ümumilikdə 34 medal qazanıbar ki, bu da 2015-ci ilin müvafiq dövründən 7 medal çoxdur.

... İslam Rzayev sonda qeyd etdi ki, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, kənd təsərrüfatı sahəsində aparılan işlərin səmərəliliyinin artırılması, bu sahədə mövcud potensialın üzə çıxarılması, eləcə də emal sənayesinin inkişafının stimullaşdırılması, yeni iş yerlərinin açılması məqsədilə icra hakimiyyəti tərəfindən sosial-iqtisadi inkişaf proqramı hazırlanıb. Bu, yaxşı fakt idi. Amma xüsusilə qeyd edilməli məqam o idi ki, bu proqramın icrası nəticəsində 7275 yeni iş yeri yaranacaq və əhalinin məşğulluğu təmin ediləcək...

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***